

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 164 (23.326)

4 sentyabr 2019-cu il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 3-də Rusiya Federasiyası Təhlükəsizlik Şurasının katibi Nikolay Patruşevin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Rusiya Federasiyası Təhlükəsizlik Şurasının katibi Nikolay Patruşev Prezident Vladimir Putinin salamlarını dövlətimizin başçısına çatdırıb.

Görüşdə Azərbaycanla Rusiya arasında ikitərəfli münasibətlərin siyasi, iqtisadi, təhlükəsizlik və bütün digər sahələrdə uğurla inkişaf etdiyi qeyd edilib, iki ölkənin dövlət başçıları arasında səmimi münasibətlərin əlaqələrimizin inkişafındakı rolu vurğulanıb, Nikolay Patruşevin rəhbərlik etdiyi nümayəndə heyətinin ölkəmizə səfəri zamanı ekstremizmə, terrorçuluğa qarşı mübarizə ilə bağlı qanunvericilik və əməkdaşlıq məsələlərinin müzakirə ediləcəyi bildirilib və bu səfərin münasibətlərimizin daha da inkişaf etdirilməsi işinə töhfə verəcəyinə əminlik ifadə olunub.

Prezident İlham Əliyev Rusiya Prezidenti Vladimir Putinin salamlarına görə minnətdarlığını bildirib, onun da salamlarını Rusiya Prezidentinə çatdırmağı xahiş edib.



## İxracın artımı iqtisadi gücün əsas göstəricisidir

***Son illər muxtar respublikada iqtisadiyyatın şaxələndirilməsi istiqamətində həyata keçirilən uğurlu siyasət, rəqabətədavamlı məhsullar istehsal edən yeni müəssisələrin yaradılması ümumi inkişafın təmin olunmasına geniş imkanlar açmışdır.***

"Naxçıvan Muxtar Respublikasının 2005-2008-ci illər Regional İnkişaf Proqramı", Naxçıvan Muxtar Respublikasının 2009-2013 və 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı dövlət proqramlarının uğurlu icrası ümumi inkişafın təmin olunması istiqamətində həyata keçirilən tədbirlərin əhatəliliyini daha da artırmışdır. Bununla yanaşı, Naxçıvan Muxtar Respublikasında 2012-2015 və 2016-2020-ci illərdə meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə dövlət proqramlarının icrası istiqamətində həyata keçirilən tədbirlər də muxtar respublikanın dinamik inkişafının təmin olunmasında mühüm rol oynayıb.

Əldə olunmuş uğurların davamlılığının qorunub saxlanılması və artan əhali tələbatına uyğun olaraq iqtisadiyyatın çoxşaxəli inkişafının təmin edilməsi, infrastrukturun və sosial xidmətlərin daha da yaxşılaşdırılması məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 29 mart tarixli Fərmanı ilə "Naxçıvan Muxtar Respublikasının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" təsdiq edilib.

Həyata keçirilmiş tədbirlərin nəticəsi olaraq muxtar respublikada 2019-cu ilin yanvar-iyul aylarında 1 milyard 545 milyon 776 min 400 manat dəyərində ümumi daxili məhsul istehsalı qeydə alınmışdır ki, bu da 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,5 faiz çoxdur. Ümumi daxili məhsulun 57 faizi məhsul istehsalının payına düşüb. Bu dövrdə sənaye məhsulu 1,3,



kənd təsərrüfatı məhsulu isə 3,4 faiz artıb.

Sahibkarlıq fəaliyyətinin davamlı olaraq dəstəklənməsi, yeni istehsal müəssisələrinin yaradılması nəticəsində muxtar respublikada 383 növdə məhsul istehsal edilir ki, bunun da 126 növü ərzaq, 257 növü isə qeyri-ərzaq məhsullarıdır. Hazırda əhalinin 108-i ərzaq, 242-si qeyri-ərzaq olmaqla, 350 növdə məhsula olan tələbatı tamamilə yerli imkanlar hesabına ödənilir.

İstehsal edilmiş keyfiyyətli yerli məhsullar daxili bazarda məhsul bolluğu yaratmaqla bərabər, muxtar respublikanın ixrac potensialına da müsbət təsir göstərib. Qeyd edək ki, ixrac hər bir ölkənin, cəmiyyətin iqtisadi inkişafının əsas göstəricilərindən biri olub, ilk növbədə, daxili iqtisadiyyatın inkişafını xarakterizə edir. Mühüm hadisə kimi ilk dəfə 2009-cu ildə muxtar respublikanın xarici ticarət dövriyyəsində müsbət saldonun yaranması





da bu sahədə əhəmiyyətli nailiyyətlərin əldə edildiyini göstərir. Xarici ticarət dövriyyəsinin 51 faizini ixrac, 49 faizini isə idxal təşkil edib.

Muxtar respublikanın ixrac potensialının artırılmasında müasir gömrük sisteminin yaradılması da mühüm rol oynayıb. Belə ki, son dövrlər Culfa və Şahtaxtı Gömrük idarələrinin yeni sərhəd-keçid kompleksləri, Naxçıvan Şəhər Gömrük İdarəsi üçün yeni kompleks, Naxçıvan Hava Nəqliyyatında Gömrük İdarəsi və "Naxçıvanterminal-kompleks" Birliyi üçün müasir gömrük infrastrukturları istifadəyə verilmişdir. Sədərək Gömrük İdarəsi üçün yeni sərhəd-keçid kompleksinin inşası hazırda davam etdirilir.

Qarşılıqlı razılaşmaya əsasən muxtar respublikada istehsal edilən və ya istehsal potensialı olan bəzi sənaye və kənd təsərrüfatı məhsullarına Türkiyə Respublikasına sərbəst ticarət imkanının verilməsi də ixrac potensialımızı artırmışdır.

Cari ilin ötən dövründə Türkiyə Respublikasının İqdır şəhərində Naxçıvan Muxtar Respublikasının Ticarət Evi istifadəyə verilmişdir ki, bu da muxtar respublikada istehsal olunan məhsulların təşviqi və satışına, eyni zamanda iş adamları arasında işgüzar görüşlərin təşkilinə və ticarət sövdələşmələrinin aparılmasına geniş imkanlar yaratmaqdadır.

Həyata keçirilən tədbirlərin nəticəsi olaraq 2019-cu ilin yanvar-iyul aylarında muxtar respublikada 253 milyon 361 min ABŞ dolları dəyərində xarici ticarət dövriyyəsi qeydə alınmışdır ki, bunun da 221 milyon 587 min 800 ABŞ dolları ixracın, 31 milyon 773 min 200 ABŞ dolları isə idxalın payına düşüb.

Cari ilin yanvar-iyul aylarında ixracın dəyəri 2010-cu ilin yanvar-iyul ayları ilə müqayisədə 2,4 dəfə artmışdır. Bu da, öz növbəsində, dinamik inkişafı xarakterizə edən mühüm göstəricidir. 2019-cu ilin yanvar-iyul aylarında ixracın 76 faizini və ya 168 milyon 483 min 900 ABŞ dollarını sənaye məhsulları, 24 faizini və ya 53 milyon 103 min 900 ABŞ dollarını isə kənd təsərrüfatı məhsulları təşkil etmişdir.

**Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti**

## Çağırışaqədərki hazırlıq rəhbərlərinin iştirakı ilə məşğələ keçirilib

*Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Naxçıvan Şəhər İdarəsinin və Naxçıvan Şəhər Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə metodik məşğələ keçirilib.*



2019-2020-ci tədris ilinin başlanması ilə əlaqədar keçirilən məşğələdə orta ümumtəhsil müəssisələrinin çağırışaqədərki hazırlıq rəhbərləri iştirak edirlər.

Məşğələni giriş sözü ilə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Naxçıvan Şəhər İdarəsinin rəisi vəzifəsini icra edən polkovnik-leytenant Sultan Zamanov açıb. Bildirib ki, Naxçıvan Muxtar Respublikasında bütün sahələr kimi, təhsil sahəsi də hərtərəfli dövlət qayğısı ilə əhatə olunub. Təhsil müəssisələri üçün yeni binaların tikilərək müəllim və şagirdlərin istifadəsinə verilməsi, məktəblərin müasir maddi-texniki baza ilə təchiz olunması, bacarıqlı pedaqoqların tədrisə cəlb edilməsi bu istiqamətdə həyata keçirilən tədbirlərdəndir.

Qeyd olunub ki, Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Naxçıvan Şəhər İdarəsinin Təhsil Şöbəsi ilə birgə razılaşdırılmış tədbirlər planına uyğun olaraq gənclərin çağırışaqədərki hazırlıq fənninin tədrisi ilə əlaqədar vətənpərvərlik mövzusunda və hərbi rəhbərlərin pedaqoji biliklərinin artırılması yönündə mütəmadi məşğələlər keçirilir. 2019-2020-ci tədris ilinin başlanması münasibətilə keçirilən növbəti məşğələ də bu istiqamətdə reallaşdırılan tədbirlərin davamıdır.

Sonra xidmətin Naxçıvan Şəhər İdarəsinin əməkdaşı Məhərrəm Əliyevin və Naxçıvan Şəhər Təhsil Şöbəsinin nümayəndəsi Şahmar Hüseynovun çıxışları dinlənilib.

Tədbirdə pedaqoji kollektivlərlə birlikdə təhsil müəssisələrində çağırışaqədər yaş həddində olan gənclər arasında vətənpərvərlik tərbiyəsi işinə diqqətin artırılması, hərbi-vətənpərvərlik hisslərinin gücləndirilməsi üçün Silahlı Qüvvələrin və başqa silahlı birləşmələrin yaradılması günlərinin qeyd edilməsi, müharibə veteranları ilə görüşlərin təşkili, şagirdlərin müvafiq kinofilmlərə baxışının təmin olunması, habelə onların hərbi-idman oyunlarında yaxından iştirakı və sair haqqında fikirlər səsləndirilib.

**Xəbərlər şöbəsi**

## Sağlamlıq imkanları məhdud uşaqlar qayğı ilə əhatə olunub

"2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı"nın icrası ilə bağlı uşaqların təhsil alması, tibbi və sosial reabilitasiyası məqsədilə ardıcıl tədbirlər ötən ay da davam etdirilib.

Bu məqsədlə Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində, eləcə də onun Defektoloji bölməsinin Şərur və Ordubad rayonlarındakı bölmələrində müasir informasiya texnologiyalarından istifadə sahəsində biliklərinin artırılması üzrə məşğələlərin təşkili, həmçinin müxtəlif sosial xidmətlərin göstərilməsi davam etdirilmiş, reabilitasiya təlimlərinə 155 uşaq cəlb olunmuşdur.

Bu qəbildən olan uşaqların tibbi reabilitasiyası da diqqətdə saxlanılmış, Uşaq Bərpa Mərkəzində 39 uşağın müalicəsi təşkil edilmiş, 3 uşağa protez-ortopediya xidmətləri göstərilmiş, 10 uşağa texniki reabilitasiya vasitələri təqdim olunmuşdur.

**Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti**

# Naxçıvan dünən

## Ağaclara balta vurularsa...

Həmişə insan hisslərinin paklığı təbiətin gözəlliyinə, bulaq saflığına bənzədilib. Təbiətə bağlılıq daim ucalıq sayılıb. Əgər biz saf havanı, əsrarəngiz təbiəti bilə-bilə korlayırıqsa, qollu-budaqlı ağacların ömrünə balta çalırıqsa, deməli, özümüzə qənim kəsilirik: hava korlanır, təbiət çılpaqlaşır, mühafizə rolunu oynayan yaşıllıqlar seyrəldikcə torpağı da yaman günə qoyur. Təbiətin yaratdığı gözəlliyi insan yarada bilmir. Amma onu qoruyub mühafizə edəndə, yaşıllıq zolaqlarını genişləndirəndə təbiət daha da zənginləşir. Heç təsadüfi deyildir ki, həmişə “Təbiət anadır, onu qoruyaq!” – sözləri bir deviz kimi səslənir. Axı bütün dəyərlərin indi qiymətdən düşdüyü bir vaxtda təbiətə amansız hücum edilməsi gələcək nəsillər üçün sağalmaz izlər qoyur. Heç uzağa getməyək. Doğma Naxçıvanımızda bu sahədə görülən yarıtmaz işlərin bəzilərinə nəzər salaq.

Muxtar respublikamızın paytaxtı Naxçıvan şəhəri yaşıllıq və gözəllik sarıdan yaman kasıblayıb. İndi ümumi evlərin həyətlərində tüstülənən ocaqlarda yığılmış beş-altı quru budağın oduna qollu-budaqlı ağaclar da yanır. Elektrik enerjisi qıtlığı, qazın olmaması, adicə neftin tapılmaması adamları çox çətin vəziyyətə salmışdır. Elə buna görə də bağ və parklarda, prospekt və küçələrdə, meydanlarda gövdəli ağacların indi kötükləri cərgələnir. Adam ehtiyac içərisində qalanları da bəzən qınamır. Axı körpə uşaq ağlaya-ağlaya iki ayağını bir başmağa dirəyib bir stəkan çay tələb edəndə yazıq valideyn əlacsız qalır. O da ocaq yandırmaq üçün əl atır ağacları kəsməyə. Bunlar olsaydı, dərd yarı idi. Ancaq ən ağırı odur ki, şəhərin başçılarının razılığı ilə neçə-neçə komissiyon, kooperativ mağazalar düzəldənlər bağ və parklarda tikinti meydanı üçün ağacları, bəzək kollarını kütləvi surətdə kəsib-doğrayırlar. Şəhər kinoteatrının arxa tərəfindəki bağçada, Böyük bağda, dəmiryol vağzalına gedən yolun kənarlarında onlarla ağac kəsilib. Yalnız dəmir köşklər qoymaq, beton bloklardan, mişar və çay daşlarından dükançıqlar tikmək üçün. Bunlara dözmək olmaz. Qəribə burasıdır ki, özü, dədə-babası, hətta tayfası şəhərdə bir ağac, bir kol əkməyənlər indi öz qolbəyləri vasitəsilə şəhərə cavabdeh olanların, inzibati orqan işçilərinin gözü qarşısında özbaşınalıq edərək ağacları sıradan çıxarırlar. Qəribə burasıdır ki, belə yaramaz əməllərlə məşğul olanlara “Gözün üstə qaşın var”, – deyən yoxdur. Hər rayonda iki-üç təbiəti mühafizə işçisi var ki, onların da yazdıqları aktlara baxan yoxdur. Mühafizə işçiləri təbiətin qəsdinə duranları cərimə etməklə öz işlərini bitmiş hesab edirlər.

**“Şərq qapısı”**
**1992-ci il**

*Bu sətirlər qələmə alındığı illərdə sərhədlərimizdə döyüş gedirdi, hər yerdən ümidi üzülən əhali günün çoxunu neft, daş kömür növbələrində keçirirdi. Elə bil təbiət də öz şıltaqlığını həmin qışa saxlamışdı. 90-cı illərin sərt qışı qazı, elektriki kəsilən sakinləri bağlara, bağçalara üz tutub ağaclara balta vurmağa məcbur edirdi, – desək, yanılmarıq. Elə bir vaxtda bütün naxçıvanlıların ümidi gəlişi ilə ömrümüzün hər gününə Günəş kimi həm aydınlıq, həm də hərarət gətirən xalqının mərd, vətənsevər oğlu dahi rəhbər Heydər Əliyev idi.*

# və bu gün

## Uğurlu ekoloji siyasətin əsasını insan amili təşkil edir

Bəli, naxçıvanlılar ulu öndərə o qədər inanırdılar ki, qaldırdıqları hər bir problem kimi, bu da yaxın zamanda həll olunacaq. Ümummilli lider Heydər Əliyev yaşıllıqların qorunmasından danışarkən deyirdi: ***“Hər bir insan ağac əkməlidir, becərməlidir, böyütməlidir. Əgər kimsə sağlam ağacı kəsirsə, o, nəinki xalqına, millətinə, ölkəsinə xəyanət edir, o, öz ailəsinə, özü-özünə xəyanət edir”.*** Bu müdrik tövsiyələr təbiətə, o cümlədən meşələrə qayğının bir nümunəsi kimi çox ibrətamizdir. Dahi rəhbər yaşıllıqların salınmasına, ağacların qorunmasına xüsusi diqqət yetirib, özü ağac əkilməsində iştirak etməklə hər kəsə nümunə göstərib.

### *Gümrahlıq, həyat mənbəyi olan yaşıllıqlar göz oxşayır*

Hər zaman öz xalqının yanında olan, ən çətin məqamlarda belə, Vətəni üçün əlindən gələni edən dahi şəxsiyyət xalqın təkidli tələbi ilə ölkəmizdə ikinci dəfə siyasi hakimiyyətə qayıtdıqdan sonra ətraf mühitin mühafizəsi, təbii sərvətlərdən səmərəli istifadə olunması və onların bərpası istiqamətində də ciddi və ardıcıl tədbirlər həyata keçirməyə başladı. Ulu öndərin müəyyənləşdirdiyi ekoloji siyasət sayəsində Vətənimizdə yeni meşələr,



bir-birindən gözəl parklar və istirahət guşələri yaradılıb. Bu gün bu siyasət ölkə başçısı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Müvafiq dövlət proqramlarının həyata keçirilməsi istiqamətində əməli tədbirlər görülür. Bütün bunlar muxtar respublikamızın da əlvan təbiətinin mühafizəsinə əsaslı təminat verir. Ana təbiətin köksünə illər öncə vurulan balta səslərinin yerini yaşıllıqlar qoynunda istirahət edən övladlarımızın şən səsləri əvəz edib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan Muxtar Respublikasında yaşıllaşdırma, təmizlik və abadlıq aylığının keçirilməsi haqqında” 2001-ci il 1 mart tarixli Sərəncamı ilə hər ilin yaz və payız mövsümlərində yaşıllaşdırma, təmizlik və abadlıq tədbirlərinin görülməsi, əsasən, şənbə günləri keçirilən iməciliklər diyarımızın ətraf mühitinin mühafizəsində, yaşıllıq zolaqlarının salınmasında və qorunmasında böyük önəm daşıyır. Həmçinin mövcud ekoloji vəziyyətin daha da yaxşılaşdırılması, təbii sərvətlərin qorunması, onlardan səmərəli istifadə edilməsi məqsədilə Ali Məclis Sədrinin 2005-ci il 23 sentyabr tarixli Sərəncamı ilə 9 min 118 hektarlıq “Arazboyu” Dövlət Təbiət Yasaqlığı, 2009-cu il 22 iyun tarixli Sərəncamı ilə isə 68 min 911 hektar sahədə “Arpaçay” Dövlət Təbiət Yasaqlığının yaradılması da təbiətin qorunması istiqamətində uğurla atılan addımlardan biridir.

Cari ildə Naxçıvan Yaşıllaşdırma Xidmətinin tingçilik sahəsi üçün yeni kompleksin tikilməsi və “İqlim otağı”nın yaradılması da bu sahədə görülən işlərin davamıdır. Burada müxtəlif meyvə və həmişəyaşıl tinglərə, gül və bəzək kollarına olan tələbat yerli istehsal hesabına ödənilməkdədir. Bütün bunlar gözəl diyarımızın yaşıllıq sahələrinin gələcəkdə daha da artmasına öz töhfəsini verəcək.



Qədim çağlardan yurdumuz bağçılıq-meyvəçilik diyarı kimi tanınıb. Xalqımız yüzillik ağacı da, körpə fidanı da bir övlad kimi qoruyub qayğısına qalıb, qocaman ağacların yerini versin deyə, yenilərini əkib, onları böyüdüb ərsəyə çatdırıb. Axı ağac da insan kimi qulluq istəyir. Elə buna görə də xalqımız ağacı yalnız yaşıllıq simvolu deyil, həm də əhalinin sağlamlığının, həyatının vacib şərti sayıb, ağacların qorunmasını, onlara qulluq göstərilməsini həmişəyaşarlıq rəmzi kimi qəbul ediblər. Xalq inamına görə, həyətdə, yaşayış evinin ətrafında ağac əkilərsə, ailəyə xeyir-bərəkət, yaxşı gün-güzəran qismət olar. Çünki ağac var ki, çiçəyi, yarpağı, meyvəsi, qabığı ilə min dərdə dərmandır. Ağac var ki, meyvəsi ilə süfrəmizə yaraşıq verir. Ağac var ki, görkəmi ilə göz oxşayır, bağları, parkları, həyətləri bəzəyir.



Təsadüfi deyil ki, “Barlı ağacın başına dolanarlar” ideyası ilə ömür sürən babalarımız təbiətə, yaşıllığa, ağaca həyat mənbəyi kimi baxıblar. Ulularımız deyiblər: “Ağacı arx qırağında ək ki, yıxılanda el-obaya körpü olsun”, “Ağaclı kəndi sel basmaz”, “Ağacı çox olan elin məzarı az olar”.

Görkəmli təbiətşünas-alim Həsən Əliyevin bu müdrik kəlamı isə daim yaddaşlardadır: *“Bəlkə də toya, yasa və digər mərasimlərə yubanmaq olar. Təbiətə münasibətdə yubanmaq isə yaşamağa yubanmaqdır”.*



İnsanlıq naminə ağaclara qulluq etmək dinimizdə də savab iş sayılır. Bu barədə hədisi-şəriflərdən birində deyilir ki, bir kimsə bir ağac əkərsə, ağac meyvə verənə qədər onu qoruyub baxarsa, bu ağacdan tökülən hər meyvə Allah qatında o kimsənin sədəqəsi olar. Ona görə də bağ salmaq, ağac əkmək, ümumiyyətlə, ətrafı yaşıllığa qərq etmək ata-babalarımızın adəti olub. Ağac bolluq, şirinlik, mehribanlıq nişanəsi hesab edilir. Ümumilikdə isə ağaclar insanın qoruyucusu, onun sağlamlığının keşikçisidir, boya-başa çatdığı məkanın gözəlliyidir.

Tədqiqatlara görə, ağaclar çox olan yerlərdə xəstəlik törədən zərərli mikroorqanizmlər 8, zərərli qazlar isə 5 dəfə az olur. Yaşıllıq sağlamlıq, gümrahlıq rəmzi olmaqla bərabər, insan yaşayışının başlıca rəhnidir. İnsan övladı da onun üçün lazım olan təmiz havanı, oksigeni məhz bu mənbədən alır, sağlamlığımız bu amildən asılıdır. Axı bir ağacın ətrafa verdiyi oksigenlə eyni vaxtda neçə-neçə insan nəfəs alır. Deyilənə görə, bir çinar ağacının verdiyi oksigen 58 adama bəs edir. Bir hektar meşə, yaşıllıq zolağı isə il ərzində 50-70 ton tozu, zəhəri öz “süzgəcindən keçirir”. Gündəlik həyatımızda əhval-ruhiyyəmizin yüksək olması da xeyli dərəcədə həmin amildən asılıdır. Axı təbiətin bu canlı varlıqlarından zövq almağı bacarmaqla yanaşı, bir qədər yorğun və əsəbi olduqda yaşıllıqlar qoynunda gəzməyi, dincəlməyi ən yaxşı istirahət hesab etmişik.

### *Ətraf mühitin mühafizəsi ümumxalq işidir*

Müdriklərimiz deyiblər: “Ağac əkmək, bağ salmaq hünər deyil, onu qoruyub saxlamağı bacarasan gərək”, “Bağa baxarsan, bağ olar, baxmazsan, dağ olar”. Onların bu kəlamlarını əsas götürən muxtar respublika sakinləri insan əlləri ilə ərsəyə gətirilmiş gözəllikləri qorumağı, onlara aqrotexniki qulluq göstərməyi özlərinin vətəndaşlıq borcuna çeviriblər. Belə ki, hər həftənin şənbə günləri idarə və müəssisələrin kollektivləri iməcilik yolu ilə əkib-becərdikləri bağlara, meşə zolaqlarına çıxır, oradakı ağacların və tinglərin quru budaqlarını və lazımsız zoğlarını vurur, ərazini alaq otlarından təmizləyir, ağacların gövdələrini sönmüş əhənglə ağardır və suvarırlar. Bu qayğının, bu qulluğun nəticəsidir ki, doğma Naxçıvanımız artıq yaşıllıqlar diyarına çevrilib. Bir vaxtlar yol kənarlarındakı ağacları barmaqla saymaq mümkün idisə, bu gün tamam başqa mənzərənin şahidi oluruq. Bunun ifadəsidir ki, əgər 20 il bundan əvvəl muxtar respublika ərazisinin 0,6 faizi yaşıllıq idisə, indi bu rəqəm 20 faiz təşkil edir. Bu da onunla bağlıdır ki, meşə fondunun mühafizə olunması, bərpası, yeni yaşıllıqların salınması istiqamətində kompleks tədbirlər davam etdirilib. Təkcə bu ilin yazında 317 hektar sahədə meşəsalma və meşəbərpa işləri aparılıb, yeni meyvə bağları salınıb, 15 min 595 gül və bəzək kolları əkilib.

Bu gün muxtar respublikanın magistral nəqliyyat yollarının kənarlarında əkilmiş meyvə və meşə ağacları bu yollardan keçənlərin zövqünü oxşamaqla bərabər ekoloji təmizliyi də təmin edir.

O da qeyd olunmalıdır ki, ətraf mühitin sağlamlaşdırılmasına dövlət nəzarəti nə qədər güclü olsa da, təbiətin gözəlliklərinin qorunmasında hər kəsin iştirakı vacibdir. Sevindirici haldır ki, bu gün muxtar respublika sakinləri kütləvi şəkildə bu prosesdə fəal iştirak edir, təbii sərvətlərimizin qorunması ilə yanaşı, yaşıllıqların artırılması qayğısına da qalırlar.

*Ümumiyyətlə, təbiətin mühafizəsinə ekoloji nəzarəti gücləndirmək bənzərsiz gözəllikləri – təbiətin saysız-hesabsız nadir incilərini qorumaq deməkdir. Ona görə də insanların ekoloji təfəkkürünün formalaşması, ekoloji mədəniyyətimizin inkişaf etdirilməsində mühüm əhəmiyyət daşıyan maarifləndirmə işləri hər zaman diqqət mərkəzində saxlanılır. Çünki bu, sağlam gələcəyimizin təmin edilməsi üçün vacibdir.*

**✍ Ramiyyə ƏKBƏROVA**

## Toplantı və praktik məşğələlər keçirilib

Naxçıvan Qarnizonu qoşunlarında snayperlərin toplantısı keçirilib. Toplantıda əsas məqsəd kəskin relyef və iqlim şəraitinə malik olan Naxçıvan ərazisində fəaliyyət göstərmək üçün şəxsi heyətə yüksək dözümlülük, təmkinlik, fiziki hazırlıq kimi xüsusiyyətlərin aşılanması olub.

“Ən yaxşı snayper” adı uğrunda keçirilən yarışda snayperlərin ayrı-ayrı üsullarla maskalanması və müşahidə aparmaq bacarıqları yoxlanılıb, müxtəlif məsafələrdə yerləşən hədəflərə atışlar icra edilib.

* * *

Naxçıvanda ordu və motoatıcı birləşmələrin artilleriya hissə və bölmələri ilə atış və atəşin idarə edilməsi mövzusunda praktik məşğələlər keçirilib. Plana əsasən həyəcan siqnalı ilə müdafiə zolağı dərinliyindəki döyüş təyinatlı rayonlarına çıxarılan artilleriya hissə və bölmələri taktiki və manevr fəaliyyətləri yerinə yetiriblər.



Şərti düşmənin fəaliyyəti təkcə yerüstü kəşfiyyat vasitələri ilə deyil, həm də pilotsuz uçuş aparatları ilə izlənilib. Qərargahların və komandirlərin döyüş zamanı bölmələri idarəetmə bacarıqlarının təkmilləşdirildiyi məşğələlərdə qarşıya qoyulmuş məqsədlərə nail olunub.

**Nəriman NƏCƏFOV**



Turizm

# Muxtar respublikada müalicə turizminin imkanları artırılır

***Naxçıvan təbii sərvətlərlə zəngindir. Bu qədim diyarda çoxsaylı faydalı qazıntı yataqları, mineral su mənbələri mövcuddur. Bunun nəticəsidir ki, muxtar respublikamız tarixi və təbiət abidələri ilə yanaşı, həm də belə sərvətləri ilə məşhurdur. Bunlardan biri də müalicəvi xüsusiyyətləri ilə seçilən Darıdağ arsenli mineral suyudur.***

Ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövründə ölkəmizdə müalicəvi suların olduğu yerlərdə səhiyyə ocaqlarının, sanatoriyaların tikilməsi istiqamətində həyata keçirilən tədbirlər 1978-ci ildə Darıdağda da müalicəxananın yaradılmasına imkan verib. Culfa şəhərindən 8-9 kilometr şimal-şərqdə, Darıdağın sıldırım yamacları arasında, dəniz səviyyəsindən 800-900 metr hündürlükdə yerləşən müalicəxananın fəaliyyətində ötən əsrin 90-cı illərində məhdudiyyətlər yaransa da, 2005-ci ildə müəssisə yenidən qurularaq istifadəyə verilib.





Ötən müddətdə müalicəxana ölkə vətəndaşları ilə yanaşı, xarici ölkələrdən gələnlərin də sağlamlığının bərpa olunmasında mühüm rol oynayıb, müalicə turizminin inkişafına geniş imkanlar açıb. Son dövrlərdə isə muxtar respublikanın səhiyyə sistemində həyata keçirilən tədbirlərin davamı kimi Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 16 oktyabr tarixli Sərəncamı ilə Darıdağ Arsenli Su Müalicəxanası yenidən təşkil edilərək publik hüquqi şəxs statusu alıb.

Məlumdur ki, müasir dövrdə müalicə turizminin öz tələbləri var. Yalnız bu tələblərə uyğun iş aparılmaqla turizmin bu sahəsini inkişaf etdirmək mümkündür. Elə bu amil nəzərə alınaraq artıq cari ildən Darıdağ arsenli su müalicə və istirahət kompleksi üçün tikinti işlərinə başlanılıb. Bu il martın 9-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tikinti aparılacaq əraziyə gələrək kompleksin layihəsi ilə tanış olub, tapşırıq və tövsiyələrini verib. Artıq burada tikinti işləri sürətlə davam etdirilməkdədir.

Məlumat üçün bildirək ki, kompleks üçün nəzərdə tutulmuş bina zirzəmi ilə birlikdə 5 mərtəbəli olacaq. Artıq birinci, ikinci və üçüncü mərtəbələrdə tikinti işləri yekunlaşdırılıb, dördüncü mərtəbənin beton-qəlib işləri görülür. Eyni zamanda binaya kommunikasiya xətləri çəkilir. Müalicəxana üçün tikilən binada ayrılıqda kişi və qadın bölmələri olmaqla, masaj otaqları, çarhovuzlar, bərbər və qadın gözəllik salonları, mağaza, restoran, otel otaqları və sair yerləşəcək.

Qeyd edək ki, Darıdağ müalicəvi suyu öz spesifik xüsusiyyətləri ilə seçilir. Bu suyun araşdırılması hələ 1830-cu ildə Q.Boskoboynikov, 1868-ci ildə Arxilov və Sulkidze tərəfindən aparılıb, 1928-ci ildə isə Lanqvaqren suyun geoloji kəşfi ilə yanaşı, kimyəvi tərkibini də öyrənib. Sonralar da Darıdağ suyunun kimyəvi, fiziki, balneoloji, müalicəvi və başqa xüsusiyyətləri Azərbaycan Elmi-Tədqiqat və Fiziki-Təbii Amillərlə Müalicə İnstitutunun, Azərbaycan Dövlət Tibb Universitetinin, Azərbaycan Milli Elmlər Akademiyasının Təbii Amillərlə Müalicə Bölməsinin əməkdaşlarından akademik M.Qaşqay, A.Qarayev, professor Ə.Əsgərov, M.Əfəndiyev, Ş.Həsənov və başqaları tərəfindən ətraflı öyrənilib. Son dövrlərdə isə professor Ə.Musayev öz təcrübələrində aşkar edib ki, Darıdağ arsenli isti suyunda müalicə olunan xəstələr üçün müəyyən edilmiş bir seansın müddəti 10-12 dəqiqədən artıq olmamalıdır. Əks-halda ürək-qan damarlarının genişlənməsi baş verər. Darıdağ suyu karbonqazlı, mərgümüşlü, yüksək minerallaşdırılmış xlorlu-hidrokarbonatlı-natriumludur: Kudova (Polşa), Dürkgeym (Almaniya), Sineqorsk (Saxalin) sularının analoqudur. Lakin suyun tərkibindəki mineral duzların mütənasibliyi ilə Darıdağ suyu onlardan üstündür.

İnsan orqanizmində elə bir toxuma, üzv və sistem yoxdur ki, bu su müalicəvi təsir göstərməklə onun iş qabiliyyətinin bərpasına səbəb olmasın. Darıdağ suyu qanyaradıcı xüsusiyyətə malik olub, qan dövranı üzvlərinin fəaliyyətinə müsbət təsir edərək periferik qanın morfoloji tərkibini yaxşılaşdırır – leykositlərin faqositoz qabiliyyətini artırır, qanazlığını aradan qaldırır. Daxili ifrazat sistemini fəallaşdırır, vegetativ sinir fəaliyyətini gücləndirməklə mədə, qaraciyər, böyrək və ürək əzələsində mübadiləni sürətləndirərək onların funksional vəziyyətini normallaşdırır. Bu xüsusiyyətlərinə görə Darıdağ suyu mədə, öd kisəsi, qaraciyər və vegetativ sinir sistemi ilə əlaqəli başqa xəstəliklərin müalicəsində də geniş tətbiq edilir. Darıdağ suyunun maddələr mübadiləsinə təsirini öyrənən bir çox alimlər onun mübadilə pozğunluğundan yaranan artritlərə müalicəvi təsirini sübuta yetiriblər. Suyun təsirindən yaraların çirkdən tez təmizlənməsini, çətin sağalan yaraların qısa müddətə, həm də çapıqsız sağalmasını həkimlər onun antiseptik, faqositar və bakteriosit qabiliyyəti ilə əlaqələndirirlər. Müəyyən edilibdir ki, mərgümüşün litium, brom, maqnezium, radioaktiv elementlər və başqa əhəmiyyətli maddələrlə müştərək təsiri maddələr mübadiləsinin bərpasına, periferik sinir sisteminin fəallaşmasına müsbət təsir göstərir. Bütün bu deyilənlərə onu da əlavə edək ki, Darıdağ suyundan hələ qədim zamanlardan kustar şəkildə sümük-oynaq, əzələ sistemi xəstəliklərində, o cümlədən "duzlaşma" adlanan patologiyalar və onun müxtəlif fəsadlarında geniş istifadə edilib. Hazırda bu müalicəxanaya yerli xəstələrlə yanaşı, xarici ölkələrdən gələn pasiyentlər də müraciət edirlər. Məsələn, bu ilin ötən dövründə putyovka ilə gələnlər üçün 450, ölkə üzrə isə, ümumilikdə, 8100 vanna qəbulu təşkil olunub. Xarici ölkələrdən müraciət edən 48 xəstə isə, əsasən, Türkiyə, Gürcüstan, Rusiya, Ukrayna, Hollandiya və Qazaxıstan vətəndaşları olub.

*Sonda onu da qeyd edək ki, Darıdağ arsenli su müalicə və istirahət kompleksinin yaradılması pasiyentlərin müalicəsi ilə yanaşı, burada onların istirahət etməsinə də imkan verəcək. Eyni zamanda müalicəxana daha çox xəstə qəbul edə biləcək. Təbii ki, yaradılacaq şərait turizmin də inkişafına öz töhfəsini verəcək.*

✍ Səbuhi HƏSƏNOV

# "CNN arabic" telekanalının rəsmi internet saytında Əshabi-Kəhflə bağlı məqalə yerləşdirilib



*Dünyanın aparıcı media qurumlarından olan "CNN arabic" telekanalının rəsmi internet saytında Əshabi-Kəhflə bağlı məqalə yerləşdirilib.*

Məqalənin müəllifi Yasəmin Ogah qeyd edib ki, mağara hekayəsi haqqında ətrafımızdakılardan həmişə eşitmişik və şübhəsiz ki, maraqlı hekayənin harada baş verdiyini bilmək istərdiniz. Onun harada olduğu ilə bağlı bir çox fərziyyələr var və azərbaycanlılar bu müqəddəs mağaranın öz ölkələrində yerləşdiyinə inanırlar. Azərbaycanlıların dediyi kimi Əshabi-Kəhf ziyarətgahı Naxçıvan Muxtar Respublikasında yerləşən bir məbəddir.

Yaxın Şərqdəki ərəbdilli ölkələrdə milyonlarla insan tərəfindən izlənilən bu kanalın saytında yerləşdirilən məqalədə müəllif əvvəllər bu müqəddəs ocağa gedişgəlişin həddindən artıq çətin olduğunu qeyd edərək bildirir ki, 1998-ci ildə dövlət tərəfindən aparılan quruculuq və bərpa işləri nəticəsində Əshabi-Kəhfə yollar çəkilib və ziyarətgah abadlaşdırılıb, bura əhəmiyyətli turizm mərkəzinə çevrilib. Hər il buranı dünyanın müxtəlif yerlərindən on minlərlə insan ziyarət edir.

Xəbərlər şöbəsi

# Kitablarla zirvəyə gedən yol və yaxud kim nəyi oxuyur?

## *"Zirvə" kitab evindən reportaj*

*Bilik xəzinəsinin qapılarını üzümüzə açan kitabların insanların mənəvi inkişafında, onların şəxsiyyət kimi formalaşmasında, dünyagörüşünün zənginləşməsində necə mühüm rol oynadığını hamımız yaxşı bilirik. Kitab oxumağın faydasını hamı dərk edir, ancaq hər kəs bundan yetərincə yararlanmağı bacarmır. Buna görə də mütaliə mövzusu vaxtaşırı olaraq televiziya və radioda, mətbuatda əsas müzakirə predmetinə çevrilir. Kimisi gənc nəslin mütaliəyə marağının azlığından, kimisi Azərbaycan dilində lazımi ədəbiyyatların olmamasından gileylənir, kimisi də əksinə, mütaliəyə maraq göstərənlərin sayının getdikcə artdığını düşünür. Bu müzakirələrdə hər kəsin özünəməxsus cavabları və yanaşma tərzi olur. Biz isə bu məsələləri bu dəfə, necə deyərlər, "ilk əldən" – kitab mağazasından araşdırmağa çalışdıq. Məqsədimiz hazırda muxtar respublikamızda mütaliəyə marağın hansı səviyyədə olması idi. Bu düşüncə ilə üz tutduq Naxçıvan şəhərində yerləşən "Zirvə" kitab evinə.*



"Zirvə" kitab evi 2014-cü ildən fəaliyyət göstərir. Bu sözləri mağazada satıcı kimi işləyən Əbdüllah Hacıyev bildirdi. Gəlişimizin məqsədini dedikdən sonra həmsöhbətimiz qeyd etdi ki, son illər insanların mütaliəyə marağı artıb. Elə bu səbəbdən kitab satışı yaxşılaşmağa başlayıb. Əbdüllah Hacıyev deyir ki, əsasən, gənclərin müraciət etdiyi mağazada Azərbaycan, rus, türk və ingilis dillərində, eyni zamanda müxtəlif yaş qruplarına uyğun hər bir oxucu axtardığı kitabı tapa bilər.

Rəflərə göz gəzdirərkən şahidi oldum ki, burada, həqiqətən də, kitab çeşidləri çoxdur. Uşaqlar üçün nağıl və maarifləndirici kitablar, elmi dərslik və metodik vəsaitlər, klassik və müasir ədəbiyyatlar... Həqiqətən də, mağazada istənilən zövqə uyğun janrda kitab əldə etmək mümkündür.

Oxucuların hansı kitablara üstünlük verdikləri ilə bağlı sualıma cavabında isə həmsöhbətim bildirir ki, hazırda oxucular, əsasən, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Oxunması zəruri olan kitablar haqqında" 2017-ci il 28 avqust tarixli Sərəncamı ilə təsdiq edilmiş siyahıya daxil olan kitablarla daha çox maraqlanırlar. Kitab evində Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi və Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı Heydər Əliyev adına Gənclər Birliyinin təşkilatçılığı ilə "Kitablar tozlanmasın" devizi altında keçirilən "Kitab qoy, kitab götür" layihəsi də həmin kitabların mütaliəsinə böyük tələbat olduğunu bir daha təsdiq etdi.

Ümumiyyətlə, bizə edilən müraciətlərə əsasən deyə bilərəm ki, adıçəkilən sərəncam mütaliəyə böyük maraq yaradıb. Biz də çalışırıq ki, həmin siyahıda olan nəşrlərin satışını təşkil etməklə bu tələbata cavab verək. İnsanların mütaliə zövqü yaşa görə dəyişir. Məsələn, yeniyetmələr daha çox romantik və bədii mövzulu kitablara üstünlük verir. Gənclər klassik və ciddi ədəbiyyatlara tələbat baxımından bir az geridə qalır. Ancaq yenə də onların da öz oxucusu var. Tolstoy, Hessen, Dostoyevski, Turgenev, Kafka, Selencerin əsərlərinə də maraq göstərilir.

Əbdüllah Hacıyevin dediyinə görə, daha çox sevilən və alınan kitablardan biri də Cek Londonun "Həyat eşqi" əsəridir. Kitabın bu il də oxucusu çoxdur. Xalid Hüseynin "Çərpələng uçuran" romanı da çox satılır. Həmin müəllifin "Min möhtəşəm Günəş" əsərinə də tələbat yetərincədir. Müasirlərimizdən Elxan Elatlının, Qaraqanın kitablarına gənclər arasında hədsiz maraq var. Müsahibim deyir ki, detektiv janrında olan kitabların alıcısı da kifayət qədərdir. Bu janrda ən çox Çingiz Abdullayevin kitabları satılır. Şeir kitablarına maraq nisbətən azdır. Klassik şairlərin kitabları alınsa da, müasir, gənc şairlərin kitablarının satışı qənaətbəxş deyil.

Mağazada olarkən bura müraciət edən alıcılarla da söhbətləşdik. Naxçıvan Dövlət Universitetinin tələbəsi Elvin Əliverdiyev motivasiya xarakterli kitabları böyük həvəslə oxuduğunu dedi. Napoleon Hillin 10-a yaxın kitabını oxuduğunu, "Düşün və varlan" əsərini olduqca bəyəndiyini söylədi. Bu kitablardan nə öyrəndiyini, nə əldə etdiyini soruşanda dedi:

– Oxuduğum kitablardan çox faydalanmışam. Mənim düşüncə tərzimə, fikirlərimə böyük təsiri var. "Düşün və varlan" kitabının ilk dəfə adı məni cəlb etdi. Maraqlanıb aldım. Böyük zövq verdi mənə. Kitabı artıq dörd dəfə oxumuşam. Masaüstü kitabımdır mənim. Oxuduqca mənəvi cəhətdən zənginləşdiyimi hiss edirəm. Napoleon Hillin əsərlərini oxumaqdan yorulmuram. Mütaliədən zövq almaqla yanaşı, özümü də inkişaf etdirirəm.

Elxan Elatlının kitabını alan gənc Gülçin Gülməmmədova ilə də həmsöhbət oldum. Klassik ədəbiyyata münasibətinin necə olduğunu soruşdum. Müsahibim dedi:

– Bəzi yazıçılar var ki, onların əsərlərini oxumağa çalışsam da, yarımçıq qoymuşam. Həddindən artıq gərəksiz təfərrüata varırlar deyə, darıxıb oxuya bilməmişəm. Ancaq elə yazıçılar da var ki, onların əsərlərini dəfələrlə oxusam da, bezmirəm, təkrar-təkrar sevərək oxuyuram.

Kitab mağazasında bir-birindən maraqlı uşaq kitablarının da satıldığını görmək çətin deyildi. Burada olarkən Nailə Bayramlının valideyni ilə birlikdə böyük həvəslə kitab seçdiyinin şahidi oluram. Valideynin Antuan de Sent-Ekzüperinin "Balaca şahzadə" hekayəsini almaqla onu nə qədər sevindirdiyini görmək, sözün düzü, bizi də qəlbən sevindirir. Oxucumuz deyir ki, onun ən çox sevdiyi hədiyyə kitablardır. Elə bu səbəbdən valideynləri ona tez-tez kitablar hədiyyə edirlər. Nailənin sözlərinə görə, hətta otağında oxuduğu kitablardan ibarət kitabxanası da var. Sevdiyi hekayələri təkrar oxumaqdan yorulmur.

..."Mütaliə cəmiyyətin gündəlik vərdişinə çevrilərsə, həmin cəmiyyət xoşbəxt olar". Dahi filosof Sokratın bu fikrini əlinə hər yeni kitab aldıqda onu acgözlüklə vərəqləyən və oxuduqlarının içində öz xəyali səadətini tapan hər kəs təsdiqləyə bilər. Bədii əsər oxuyanda qəhrəmanının ruh halına görə üz-gözündə ifadələr dəyişirsə, demək, sən artıq ətrafındakı laqeyd münasibətlərdən, beynini məşğul edən qayğılardan azad halda əsərinin qəhrəmanı ilə ruh söhbətindəsən. Mütaliədən böyük zövq də elə budur. Bütün faydalı kitabları oxumaq ümidi ilə hər kəsə bu zövqü yaşamağı arzulayırıq.

✍ Gülcamal TAHİROVA

## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya Naxçıvan Muxtar Respublikasının dövlət ümumi təhsil müəssisələrində vakant vəzifələrə işə qəbul üçün müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər 4 sentyabr-4 oktyabr 2019-cu il tarixlərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın internet portalında *(www.dqmk.nmr.az)* "şəxsi kabinet" bölməsinə daxil olaraq elektron müraciət formasını doldurmaqla qeydiyyatdan keçməlidirlər.

Namizədlər elektron ərizəni təsdiq etmək məqsədilə test imtahanında iştirak üçün 70 manat məbləği komissiyanın "Naxçıvanbank" ASC-dəki bank hesabına (AZ50NAXB36015000024840000AZN) ödəməli və ödənişə dair qəbzin surətini komissiyaya təqdim etməlidirlər.

Namizədlər, həmçinin komissiyaya gəlmədən "şəxsi kabinet" vasitəsilə onlayn olaraq bank kartları ilə ödəniş edə bilərlər.

Elektron ərizələrin təsdiqi həftənin iş günləri saat $9^{00}$-dan $12^{30}$-dək və $14^{00}$-dan $17^{30}$-dək həyata keçirilir.

Namizəd bir neçə vakant vəzifənin tutulması üçün müraciət edə bilər.

Maraqlananlar komissiyanın (036) 545-65-71 nömrəli əlaqə telefonu və ya *dqmk@nakhchivan.az* elektron poçt ünvanı vasitəsilə ətraflı məlumat əldə edə bilərlər.

| Vəzifə kodu | Təhsil müəssisəsi | İxtisas | Vakant yerlərin sayı | Qeyd |
|---|---|---|---|---|
| **Naxçıvan şəhəri üzrə:** | | | | |
| 6900127 | Heydər Əliyev adına tam orta məktəb | Kitabxana müdiri | 1 | |
| 6900255 | Naxçıvan Qızlar Liseyi | Laborant (kimya-biologiya) | 1 | |
| 6900237 | Naxçıvan Qızlar Liseyi | Psixoloq | 1 | |
| 6900249 | Naxçıvan Qızlar Liseyi | Tərbiyəçi | 1 | |
| 6910106 | 1 №-li tam orta məktəb | Uşaq birliyi təşkilatının rəhbəri | 1 | |
| 6910354 | 3 №-li tam orta məktəb | Laborant (fizika) | 1 | |
| 6910306 | 3 №-li tam orta məktəb | Uşaq birliyi təşkilatının rəhbəri | 1 | |
| 6910427 | 4 №-li tam orta məktəb | Kitabxana müdiri | 1 | |
| 6911143 | 11 №-li tam orta məktəb | Kitabxanaçı | 1 | |
| 6911253 | 12 №-li tam orta məktəb | Laborant (biologiya) | 1 | |
| 6911254 | 12 №-li tam orta məktəb | Laborant (fizika) | 1 | |
| 6911306 | 13 №-li tam orta məktəb | Uşaq birliyi təşkilatının rəhbəri | 1 | |
| 6911443 | 14 №-li tam orta məktəb | Kitabxanaçı | 1 | |
| 6911452 | 14 №-li tam orta məktəb | Laborant (kimya) | 1 | |
| 6911406 | 14 №-li tam orta məktəb | Uşaq birliyi təşkilatının rəhbəri | 1 | |
| 6911743 | 17 №-li tam orta məktəb | Kitabxanaçı | 1 | |
| 6911706 | 17 №-li tam orta məktəb | Uşaq birliyi təşkilatının rəhbəri | 1 | |
| **Cəmi:** | | **17 yer** | | |
| **Şərur rayonu üzrə:** | | | | |
| 6900454 | Fizika-Riyaziyyat Təmayüllü Lisey | Laborant (fizika) | 1 | |
| 6900449 | Fizika-Riyaziyyat Təmayüllü Lisey | Tərbiyəçi | 5 | |
| 6920253 | Şərur şəhər 2 №-li tam orta məktəb | Laborant (biologiya) | 1 | |
| 6920206 | Şərur şəhər 2 №-li tam orta məktəb | Uşaq birliyi təşkilatının rəhbəri | 1 | |
| 6920305 | Alışar kənd tam orta məktəbi | Psixoloq | 1 | |
| 6920405 | Aralıq kənd tam orta məktəbi | Psixoloq | 1 | |
| 6920605 | Aşağı Daşarx kənd tam orta məktəbi | Psixoloq | 1 | |
| 6920705 | Aşağı Yaycı kənd tam orta məktəbi | Psixoloq | 1 | |
| 6920856 | Axaməd kənd tam orta məktəbi | Laborant (kimya, biologiya, fizika) | 1 | |
| 6922527 | Həmzəli kənd tam orta məktəbi | Kitabxana müdiri | 1 | |
| 6922727 | Kərimbəyli kənd tam orta məktəbi | Kitabxana müdiri | 1 | |
| 6922806 | Kosacan kənd tam orta məktəbi | Uşaq birliyi təşkilatının rəhbəri | 1 | |
| 6923106 | Mahmudkənd tam orta məktəbi | Uşaq birliyi təşkilatının rəhbəri | 1 | |
| 6923627 | Püsyan kənd tam orta məktəbi | Kitabxana müdiri | 1 | |
| 6923827 | Qarahəsənli kənd tam orta məktəbi | Kitabxana müdiri | 1 | |
| 6923805 | Qarahəsənli kənd tam orta məktəbi | Psixoloq | 1 | |
| 6923906 | Qarxun kənd tam orta məktəbi | Uşaq birliyi təşkilatının rəhbəri | 1 | |
| 6924027 | Qorçulu kənd tam orta məktəbi | Kitabxana müdiri | 1 | |
| 6924127 | Sərxanlı kənd tam orta məktəbi | Kitabxana müdiri | 1 | |
| 6924556 | Tənənəm kənd tam orta məktəbi | Laborant (kimya, biologiya, fizika) | 1 | |
| 6924827 | Vərməziyar kənd tam orta məktəbi | Kitabxana müdiri | 1 | |
| 6925455 | Yuxarı Daşarx kənd tam orta məktəbi | Laborant (kimya-biologiya) | 1 | |
| 6925405 | Yuxarı Daşarx kənd tam orta məktəbi | Psixoloq | 1 | |
| **Cəmi:** | | **27 yer** | | |
| **Babək rayonu üzrə:** | | | | |
| 6930106 | Babək qəsəbə 1 №-li tam orta məktəb | Uşaq birliyi təşkilatının rəhbəri | 1 | |
| 6930343 | Araz kənd əsas ümumi orta məktəb | Kitabxanaçı | 1 | |
| 6930306 | Araz kənd əsas ümumi orta məktəb | Uşaq birliyi təşkilatının rəhbəri | 1 | |
| 6930543 | Cəhri kənd 1 №-li tam orta məktəb | Kitabxanaçı | 1 | |
| 6931005 | Göynük kənd tam orta məktəbi | Psixoloq | 1 | |
| 6931327 | Hacıvar kənd tam orta məktəbi | Kitabxana müdiri | 1 | |
| 6931353 | Hacıvar kənd tam orta məktəbi | Laborant (biologiya) | 1 | |
| 6931454 | Kərimbəyli kənd tam orta məktəbi | Laborant (fizika) | 0,5 | |
| 6931705 | Məzrə kənd tam orta məktəbi | Psixoloq | 1 | |
| 6931827 | Naxışnərgiz kənd tam orta məktəbi | Kitabxana müdiri | 1 | |
| 6931805 | Naxışnərgiz kənd tam orta məktəbi | Psixoloq | 1 | |
| 6931952 | Nəcəfəlidizə kənd tam orta məktəbi | Laborant (kimya) | 1 | |
| 6931906 | Nəcəfəlidizə kənd tam orta məktəbi | Uşaq birliyi təşkilatının rəhbəri | 1 | |
| 6932143 | Nehrəm kənd 1№-li tam orta məktəb | Kitabxanaçı | 1 | |
| 6932227 | Nehrəm kənd 2 №-li tam orta məktəb | Kitabxana müdiri | 1 | |
| 6932305 | Nehrəm kənd 3 №-li tam orta məktəb | Psixoloq | 1 | |
| 6932352 | Nehrəm kənd 3 №-li tam orta məktəb | Laborant (kimya) | 1 | |
| 6932454 | Payız kənd tam orta məktəbi | Laborant (fizika) | 1 | |
| 6932654 | Qaraqala kənd tam orta məktəbi | Laborant (fizika) | 1 | |
| 6932827 | Şəkərabad kənd tam orta məktəbi | Kitabxana müdiri | 1 | |
| 6933027 | Uzunoba kənd tam orta məktəbi | Kitabxana müdiri | 1 | |
| 6933654 | Zeynəddin kənd tam orta məktəbi | Laborant (fizika) | 0,5 | |
| **Cəmi:** | | **22 yer** | | |
| **Ordubad rayonu üzrə:** | | | | |
| 6940105 | Ordubad şəhər 1 №-li tam orta məktəb | Psixoloq | 1 | |
| 6940427 | Aşağı Əylis kənd tam orta məktəbi | Kitabxana müdiri | 1 | |
| 6940505 | Aza kənd tam orta məktəbi | Psixoloq | 1 | |
| 6940705 | Baş Dizə kənd tam orta məktəbi | Psixoloq | 1 | |
| 6940954 | Biləv kənd tam orta məktəbi | Laborant (fizika) | 1 | |
| 6940906 | Biləv kənd tam orta məktəbi | Uşaq birliyi təşkilatının rəhbəri | 1 | |
| 6941105 | Çənnəb kənd tam orta məktəbi | Psixoloq | 1 | |
| 6941605 | Düylün kənd tam orta məktəbi | Psixoloq | 1 | |
| 6941806 | Əndəmic kənd tam orta məktəbi | Uşaq birliyi təşkilatının rəhbəri | 1 | |
| 6942105 | Kələki kənd tam orta məktəbi | Psixoloq | 1 | |
| 6942405 | Nürgüt kənd tam orta məktəbi | Psixoloq | 1 | |
| 6942505 | Nüsnüs kənd tam orta məktəbi | Psixoloq | 1 | |
| 6942827 | Sabirkənd tam orta məktəbi | Kitabxana müdiri | 1 | |
| 6942805 | Sabirkənd tam orta məktəbi | Psixoloq | 1 | |
| 6942952 | Tivi kənd tam orta məktəbi | Laborant (kimya) | 1 | |
| 6942905 | Tivi kənd tam orta məktəbi | Psixoloq | 1 | |
| 6943105 | Üstüpü kənd tam orta məktəbi | Psixoloq | 1 | |
| 6943254 | Vələver kənd tam orta məktəbi | Laborant (fizika) | 1 | |
| 6943605 | Yuxarı Əylis kənd tam orta məktəbi | Psixoloq | 1 | |
| **Cəmi:** | | **19 yer** | | |
| **Culfa rayonu üzrə:** | | | | |
| 6950106 | Culfa şəhər 1 №-li tam orta məktəb | Uşaq birliyi təşkilatının rəhbəri | 1 | |
| 6950306 | Culfa şəhər 3 №-li tam orta məktəb | Uşaq birliyi təşkilatının rəhbəri | 1 | |
| 6950506 | Boyəhməd kənd tam orta məktəbi | Uşaq birliyi təşkilatının rəhbəri | 1 | |
| 6950753 | Dizə kənd tam orta məktəbi | Laborant (biologiya) | 1 | |
| 6950705 | Dizə kənd tam orta məktəbi | Psixoloq | 1 | |
| 6950827 | Əbrəqunus kənd tam orta məktəbi | Kitabxana müdiri | 1 | |
| 6951243 | Gal kənd tam orta məktəbi | Kitabxanaçı | 1 | |
| 6951427 | Gülüstan kənd tam orta məktəbi | Kitabxana müdiri | 1 | |
| 6961605 | Ləkətağ kənd tam orta məktəbi | Psixoloq | 1 | |
| 6951606 | Ləkətağ kənd tam orta məktəbi | Uşaq birliyi təşkilatının rəhbəri | 1 | |
| 6951853 | Qazançı kənd tam orta məktəbi | Laborant (biologiya) | 1 | |
| 6952027 | Saltaq kənd tam orta məktəbi | Kitabxana müdiri | 1 | |
| 6952205 | Teyvaz kənd tam orta məktəbi | Psixoloq | 1 | |
| 6952327 | Xanəgah kənd tam orta məktəbi | Kitabxana müdiri | 1 | |
| 6952355 | Xanəgah kənd tam orta məktəbi | Laborant (kimya-biologiya) | 1 | |
| 6952427 | Xoşkeşin kənd tam orta məktəbi | Kitabxana müdiri | 1 | |
| 6952405 | Xoşkeşin kənd tam orta məktəbi | Psixoloq | 1 | |
| **Cəmi:** | | **17 yer** | | |
| **Kəngərli rayonu üzrə:** | | | | |
| 6970106 | Qıvraq qəsəbə tam orta məktəbi | Uşaq birliyi təşkilatının rəhbəri | 1 | |
| 6970405 | Qabıllı kənd tam orta məktəbi | Psixoloq | 1 | |
| 6970652 | Qarabağlar kənd 2 №-li tam orta məktəb | Laborant (kimya) | 1 | |
| 6970906 | Xıncab kənd tam orta məktəbi | Uşaq birliyi təşkilatının rəhbəri | 1 | |
| 6971105 | Yeni Kərki kənd tam orta məktəbi | Psixoloq | 1 | |
| 6971106 | Yeni Kərki kənd tam orta məktəbi | Uşaq birliyi təşkilatının rəhbəri | 1 | |
| 6971227 | Yurdçu kənd tam orta məktəbi | Kitabxana müdiri | 1 | |
| **Cəmi:** | | **7 yer** | | |
| **Şahbuz rayonu üzrə:** | | | | |
| 6960406 | Aşağı Qışlaq kənd tam orta məktəbi | Uşaq birliyi təşkilatının rəhbəri | 1 | |
| 6960505 | Ayrınc kənd tam orta məktəbi | Psixoloq | 1 | |
| 6961053 | Gömür kənd tam orta məktəbi | Laborant (biologiya) | 1 | |
| 6961006 | Gömür kənd tam orta məktəbi | Uşaq birliyi təşkilatının rəhbəri | 1 | |
| 6961105 | Güney Qışlaq kənd tam orta məktəbi | Psixoloq | 1 | |
| 6961227 | Keçili kənd tam orta məktəbi | Kitabxana müdiri | 1 | |
| 6961252 | Keçili kənd tam orta məktəbi | Laborant (kimya) | 1 | |
| 6961205 | Keçili kənd tam orta məktəbi | Psixoloq | 1 | |
| 6961206 | Keçili kənd tam orta məktəbi | Uşaq birliyi təşkilatının rəhbəri | 1 | |
| 6961427 | Kükü kənd tam orta məktəbi | Kitabxana müdiri | 1 | |
| 6961405 | Kükü kənd tam orta məktəbi | Psixoloq | 1 | |
| 6961527 | Külüs kənd tam orta məktəbi | Kitabxana müdiri | 1 | |
| 6961627 | Mahmudoba kənd tam orta məktəbi | Kitabxana müdiri | 1 | |
| 6961606 | Mahmudoba kənd tam orta məktəbi | Uşaq birliyi təşkilatının rəhbəri | 1 | |
| 6961705 | Nursu kənd tam orta məktəbi | Psixoloq | 1 | |
| 6961952 | Şələsüz kənd tam orta məktəbi | Laborant (kimya) | 1 | |
| 6962053 | Şada kənd tam orta məktəbi | Laborant (biologiya) | 1 | |
| 6962005 | Şada kənd tam orta məktəbi | Psixoloq | 1 | |
| 6962006 | Şada kənd tam orta məktəbi | Uşaq birliyi təşkilatının rəhbəri | 1 | |
| 6962205 | Türkeş kənd tam orta məktəbi | Psixoloq | 1 | |
| **Cəmi:** | | **20 yer** | | |
| **Sədərək rayonu üzrə:** | | | | |
| 6980105 | Heydərabad qəsəbə tam orta məktəbi | Psixoloq | 1 | |
| 6980405 | Sədərək kənd 2 №-li tam orta məktəb | Psixoloq | 1 | |
| 6980205 | Qaraağac kənd tam orta məktəbi | Psixoloq | 1 | |
| **Cəmi:** | | **3yer** | | |
| **YEKUN:** | | **132 yer** | | |


**ŞƏRQ qapısı**

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.*

*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Güntac Şahməmmədli

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

Tiraj: 1495. Sifariş № 592